# ODLAR YURDU UNİVERSİTETİ

**Elmi Şurasının 02 mart 2026-cı il tarixli iclasının**

**06 saylı**

**PROTOKOLU**

| | |
|---|---|
| Bakı şəhəri | 02 mart 2026-cı il |
| Elmi Şuranın sədri: | prof. Ə.A.Vəliyev |
| Elmi katib: | dos. S.S.Məmmədzadə |
| İştirak etdilər: | Elmi Şuranın 26 üzvü |

**Gündəlikdə duran məsələlər**

| |
|---|
| **1.** Struktur dəyişikliyi haqqında məsələnin müzakirəsi |
| **2.** Məqalələri “Scopus” bazasına daxil olan “Ağıllı ətraf mühit və yaşıl texnologiyalar üzrə 3-cü beynəlxalq elmi konfrans”a hazırlığın gedişatı məsələsi. |
| **3.** Universitetin doktorant, magistr və müəllimlərinin beynəlxalq və respublika elmi konfranslarda iştirakının təmin edilməsi. |

**I. Struktur dəyişikliyi haqqında məsələnin müzakirəsi**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

Prof. Ə.A.Vəliyev çıxış edərək, "İnformasiya texnologiyaları və informasiya təhlükəsizliyi" kafedrasının adının "İnformasiya texnologiyaları və kiber təhlükəsizlik" adı ilə əvəzlənməsini təklif etdi.

Müzakirələr və təkliflərdən sonra qərar qəbul edilir.

**Qərar:**

"İnformasiya texnologiyaları və informasiya təhlükəsizliyi" kafedrasının adı "İnformasiya texnologiyaları və kiber təhlükəsizlik" adı ilə əvəz edilsin.

**II. Məqalələri "Scopus" bazasına daxil olan "Ağıllı ətraf mühit və yaşıl texnologiyalar üzrə 3-cü beynəlxalq elmi konfrans"a hazırlığın gedişatı məsələsi.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

Prof. Ə.A.Vəliyev çıxış edərək yaxınlaşmaqda olan "Ağıllı ətraf mühit və yaşıl texnologiyalar üzrə 3-cü beynəlxalq elmi konfrans" haqda məlumat verdi. O, bildirdi ki, zamanın daralmağına baxmayaraq çox az sayda məqalə daxil olmuşdur. Kafedralar bu işlə çox ciddi məşğul olmalıdırlar, universitetin bütün professor-müəllim heyəti məqalə yazılması ilə fəal məşğul olmalıdırlar. Hər bir müəllimin auditoriya saatından savayı elmi fəaliyyət saatı da olmalıdır. Düşünürük ki, yaranmış bu məsələ ilə bağlı problem məsələnin maddi tərəfidir. Məqalənin nəşrinin ödənişli olması təqdim edilən məqalələrin az olmasına təsir etmişdir. Bu səbəbdən rəhbərlik olaraq belə qərara gəldik ki, OYU əməkdaşları tərəfindən təqdim edilən məqalələrin ödənişləri universitet tərəfindən təmin edilsin. Məqalənin nəşr edilməsi üçün tələb edilən ödənişi tam şəkildə universitet öz üzərinə götürsün.

Müzakirə və təkliflərdən sonra qərar qəbul edilir.

**Qərar:**

1. Odlar Yurdu Universiteti professor-müəllim heyətinin “Ağıllı ətraf mühit və yaşıl texnologiyalar üzrə 3-cü beynəlxalq elmi konfrans” üçün təqdim edəcəkləri məqalələrin çapı üçün tələb edilən ödəniş tam şəkildə Odlar Yurdu Universiteti tərəfindən təmin edilsin.
2. Kafedra müdirləri qəbul edilmiş qərarın kafedra əməkdaşlarına çatdırılmasını təmin etsinlər.

**III. Universitetin doktorant, magistr və müəllimlərinin beynəlxalq və respublika elmi konfranslarda iştirakının təmin edilməsi.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor prof. F.Məmmədov çıxış edərək bildirdi ki, mütəmadi olaraq həm doktorantlar, həm də magistrlarla görüşlər keçirilir, onların beynəlxalq və respublika elmi konfranslarda iştirakının vacib olmasını barədə məlumatlar verilir. Qeyd edilmişdir ki, universitet üzrə hər bir magistr ən azı 1(bir) elmi məqalə dərc etdirməlidir. Qeyd etmək yerinə düşər ki, ötən ilki “Ağıllı ətraf mühit və yaşıl texnologiyalar üzrə 2-ci beynəlxalq elmi konfrans”da doktorantlarımız çox fəal iştirak etmişdilər. Həmçinin magistrlarımızın da elmi fəaliyyətlərini qənaətbəxş hesab etmək olar.

Müzakirələrədən sonra qərar qəbul edilir.

**Qərar:**

Universitetin doktorant, magistr və müəllimlərinin beynəlxalq və respublika elmi konfranslarda iştirakı təmin edilsin.

Sonda prof. Ə.A.Vəliyev Şura üzvlərinə iştiraklarına görə təşəkkürünü bildirərək iclasın bitdiyini elan etdi.

**Sədr** **prof. Ə.A.Vəliyev**

**Elmi katib** **dos. S.S.Məmmədzadə**